

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 139 (24.026)

*27 iyul 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə və yarım ilin yekunlarına həsr olunan kollegiya iclası keçirilib. İclası giriş sözü ilə nazir Vüsal Sevdimaliyev açıb. Qeyd olunub ki, ən müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində 2022-ci ilin birinci yarısında bir sıra layihələr həyata keçirilib.*

Şərur rayonunun Çərçiboğan kəndində yeni Rabitə Evi istifadəyə verilib, stasionar telefon şəbəkəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılıb, ümumilikdə, 935 yeni sabit şəbəkə telefon nömrəsi abonentlərin istifadəsinə verilib. Əhalinin müasir rabitə xidmətlərinə olan tələbatı nəzərə alınaraq Naxçıvan şəhərinin Qaraçuq kəndində 256 nömrə tutumlu, Şahbuz şəhərində 448 nömrə tutumlu, Babək rayonunda, ümumilikdə, 4 yeni HUAWEI NGN tipli avtomat telefon stansiyalarının quraşdırılması başa çatıb. Ordubad rayonunun Pəzməri kəndində rabitə xətt təsərrüfatının və 96 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyasının quraşdırılması, eləcə də rayonun Unus və Kələki, Şərur rayonunun Həmzəli, Vərməziyar və Axura kəndlərində rabitə xətt təsərrüfatının yenilənməsi istiqamətində müvafiq işlər isə davam etdirilir.

Bildirilib ki, nazirlik aparatının məsul şəxslərinin iştirakı ilə rayon mərkəzlərində və kəndlərində monitorinqlər aparılıb, təmir-bərpa işləri görülüb, tələbata uyğun olaraq bir sıra yerlərdə aztutumlu kabellər çoxtutumlu kabellərlə əvəz olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasının ərazisində fiber-optik kabel şəbəkəsinin genişləndirilməsi, evlərə fiber-optik xətlərin çəkilməsinə də şərait yaradıb, "Evədək optika" layihəsi çərçivəsində Naxçıvan şəhərində 16 mənzilə fiber-optik xətt çəkilib və zəruri avadanlıqlar quraşdırılıb. Əhalinin keyfiyyətli internet xidmətləri ilə təmin olunması, eləcə də internetə olan tələbatının ödənilməsi diqqətdə saxlanılıb, Naxçıvan şəhərində, Şərur, Babək, Ordubad, Şahbuz və Sədərək rayonlarının bir sıra kəndlərində fəaliyyət göstərən yeni nəsil HUAWEI NGN tipli avtomat telefon stansiyalarının internet tutumları artırılıb ki, nəticə etibarilə, 2700-dən artıq internet istifadəçisinin tələbatının ödənilməsinə imkan yaranıb. 2022-ci ilin ilk altı ayı ərzində, ümumilikdə, 3032 abonent internetlə təmin olunub.

Qeyd edilib ki, ötən dövr ərzində nazirliyin proqramçıları tərəfindən hazırlanmış 9 qurumun rəsmi internet səhifələrinin təqdimatları keçirilib. Saytlar həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiyalar ilə müqayisədə daha da təkmilləşdirilib. İstifadəçi rahatlığını təmin etmək üçün yeni saytlar müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüter, planşet və mobil telefonunun ekran ölçülərinə uyğun şəkildə hazırlanıb, domenə bağlı e-poçt adresləri ilə təmin olunub, proqram təminatlarının, dizaynlarının, idarə edilməsinin, informasiya təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin, habelə təhlükəsizlik sertifikatları ilə təmin olunması, saytların optimizasiyası, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib.

2022-ci ilin müvafiq dövründə 7-si vətəndaş, 30-u sahibkar, 24-ü hüquqi şəxs, 179- u isə dövlət qurumu olmaqla istifadəçilərə təqdim olunan elektron imza sertifikatının sayı 240 təşkil edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası, eləcə də kadr hazırlığı da diqqət mərkəzində saxlanılıb hamiliyə verilmiş aid ixtisaslar üzrə təcrübə keçən tələbələrlə təşkil olunan görüşlərdə onlara yeni texnologiyalar barədə, o cümlədən müxtəlif müasir proqramlar, analoq və rəqəmsal elektronika, süni intellekt, nanotexnologiya, robotexnika, mexatronika və 5G texnologiyaları barəsində hazırlanmış slaydlar vasitəsilə ətraflı məlumatlar verilib.

Diqqətə çatdırılıb ki, nazirlik aparatının, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və rayon (şəhər) idarələrinin işçilərinin aidiyyəti sahələr üzrə bilik və bacarıqlarının artırılması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilib, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında informasiya təhlükəsizliyinin təminatı üzrə Nümunəvi Təlimat"ın icrası ilə bağlı İmtahan Mərkəzinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda işləyən aid əməkdaşlar və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin kursantları üçün seminarlar təşkil olunub, nazirliyin təşkilatçılığı ilə "Microsoft" korporasiyası, "HUAWEI Technologies Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Defscope" Məhdud Məsuliyyətli Cəmiyyəti, "ORIENT" İnformasiya Texnologiya Mərkəzi, "Dell Technologies", "PlusClouds", "Radius" və "Schneider Electric" şirkətləri, Prysmian Group, "Azerfon" və Azerconnekt" Məhdud Məsuliyyətli cəmiyyətləri tərəfindən seminar və vebinarlar keçirilib, həmçinin Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan ixtisasartırma kurslarına 135 qrup olmaqla, 315 dinləyici cəlb edilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında cari ilin 6 ayının yekunlarına və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.

Yığıncağı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva giriş sözü ilə açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının müdafiəsi və bərpası məqsədilə



məhkəmədənkənar hüquq müdafiə mexanizmi və insan hüquqları institutu kimi fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) hamı üçün bərabər hüquqların təmin olunmasını və əhalinin bütün qruplarının hüquq və azadlıqlarına hörmət edilməsini fəaliyyətinin bütün dövrlərində əsas meyar kimi rəhbər tutub.

Vurğulanıb ki, 2022-ci ilin birinci yarısında Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 33 müraciət daxil olub, bütün müraciətlərə qanunla müəyyən edilən müddətlərdə baxılaraq vaxtında cavablandırılıb, şikayətlərin 5-nə baxılmasından qanunvericiliyə uyğun olaraq imtina edilib, qalan 28 müraciət baxılmaq üçün icraata qəbul olunub.

Qeyd edilib ki, Müvəkkil cari ilin 6 ayı ərzində sosial cəhətdən həssas olan əhali qruplarının, o cümlədən uşaqların, qadınların, sağlamlıq imkanları məhdud olan şəxslərin, ahılların və miqrantların, həbs edilmiş şəxslərin və məhkumların, hərbi qulluqçuların hüquqlarının müdafiəsini diqqət mərkəzində saxlayıb. Müvəkkil fəaliyyətini həmin şəxslərə ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirərək hesabat dövründə 37 hüquqi maarifləndirici tədbir keçirib, həmin tədbirlərdə, ümumilikdə, 717 nəfər iştirak edib.

Vurğulanıb ki, hesabat dövründə səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşan Müvəkkil təsisatı tərəfindən preventiv mexanizm funksiyasının icrası təmin olunub, preventiv mexanizm yurisdiksiyasının şamil edildiyi orqanlar üzrə, ümumilikdə, 28 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 66 başçəkmə həyata keçirilib. Başçəkmələr zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılıb, saxlanılan şəxslərlə görüşlər keçirilib, 255 şəxslə ümumi və fərdi söhbətlər aparılıb, hüquq və vəzifələri izah edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasından irəli gələn vəzifələr və 2022-ci ilin birinci yarısında görülmüş işlər müzakirə olunub. Kollegiya iclasında komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli qeyd edib ki, hesabat dövrü ərzində gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin və daxili bazarın qorunması, hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi, ixracın stimullaşdırılması və gömrük xidmətinin keyfiyyətinin artırılması istiqamətində fəaliyyət davam etdirilib.

Vurğulanıb ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gömrük xidmətinin modernləşməsi, iş şəraitinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılıb. Sədərək Dövlət Sərhəd-Buraxılış Məntəqəsində yük maşınlarının sıxlığının aradan qaldırılmasına, idxal və ixrac istiqamətində yüklərin rəsmiləşməsinin sürətlənməsinə xidmət edəcək Sədərək Ticarətin Asanlaşması Mərkəzinin tikintisinə başlanılıb. Tranzit nəqliyyat vasitələrinin muxtar respublika ərazisindən sürətli və təhlükəsiz keçidinin təmin edilməsi məqsədilə Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsi üçün yeni yolun çəkilişi başa çatdırılıb. Risk amilləri əsasında yeni profillərin for-



malaşdırılması ilə gömrük xidmətində risklərin idarə olunması işinin səmərəliliyi artırılıb. Komitənin Hədəf Mərkəzi vasitəsilə gömrük orqanlarında iş prosesinə və gömrük müayinələrinə nəzarət gücləndirilib.

Komitə sədri bildirib ki, muxtar respublika gömrük orqanları 2022-ci il ilin birinci yarısında 18 milyon manat vəsait toplayaraq büdcə öhdəliyini 109 faiz yerinə yetirib. Toplanmış gömrük ödənişləri keçən ilin müvafiq dövrü ilə müqayisədə 26 faiz çox olub.

Vurğulanıb ki, 2022-ci ilin altı ayı ərzində gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizə gücləndirilib, gömrük orqanları tərəfindən 101 inzibati, 9 cinayət xarakterli fakt aşkarlanıb, ümumilikdə, 802 kiloqram narkotik vasitə və psixotrop maddənin muxtar respublika ərazisindən tranzit keçirilməsinin qarşısı alınıb.

Muxtar respublikamızda qəbul olunmuş Dövlət proqramlarından, Ali Məclisin sessiyalarından, keçirilən müşavirələrdən irəli gələn vəzifələrin icrası istiqamətində işlər davam etdirilib. Daxili bazarın xarici təsirlərdən qorunması, yeri istehsalın, o cümlədən ailə təsərrüfatlarının dəstəklənməsi istiqamətində əlavə tədbirlər görülüb, muxtar respublikaya gətirilən malların keyfiyyətinə ciddi nəzarət edilib. Cari ilin altı ayı ərzində keyfiyyəti standartlara cavab vermədiyindən 12 tondan artıq qida məhsulu və yuyucu vasitələr saxlanılaraq müvafiq tədbirlər görülüb.

Hesabat dövründə malların gömrük rəsmiləşməsinin asan və sürətli formada həyata keçirilməsi, kənd təsərrüfatı məhsullarının ixracına köməklik göstərilməsi, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən ixracatçıların sayının artırılması ilə muxtar respublikanın ixrac potensialının gücləndirilməsinə dəstək verilib.

Gömrük orqanlarında kadr potensialının gücləndirilməsi və əməkdaşların peşəkarlığının artırılması məqsədilə ixtisaslaşma və təkmilləşmə proqramlarının həyata keçirildiyini vurğulayan komitə sədri müxtəlif mövzularda təlimlərin gömrük işinin və gömrük nəzarətinin keyfiyyətinin artırılması baxımından səmərəli olduğunu, bu il keçirilən təlimlərdə, ümumilikdə, 155 əməkdaşın iştirak etdiyini qeyd edib.

Komitə sədri vurğulayıb ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında verilmiş tapşırıqlara uyğun olaraq muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda mövqeyinin möhkəmləndirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində işlər davam etdiriləcək, daxili tələbat və ixrac imkanları, o cümlədən ixrac bazarlarında baş verən tendensiyalar düzgün təhlil olunaraq müvafiq tədbirlər görüləcəkdir. Həmçinin gömrük-keçid məntəqələrində xidməti davranışın düzgün qurulması və nizam-intizamın möhkəmləndirilməsi diqqətdə saxlanılacaqdır.

Kollegiya iclasına yekun vuran komitə sədri hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gömrük orqanlarının xidmətin keyfiyyətinin yüksəldilməsi, biznes subyektləri və vətəndaşlarla işin gücləndirilməsi, əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, qonşu ölkələrin milli valyutalarında kəskin dəyişikliklər zamanı daxili bazarın qorunması üçün əlavə tədbirlərin görülməsi, gömrük işi sahəsində elektron xidmətlərdən istifadənin artırılması və gömrük rəsmiləşməsinin daha da sürətlənməsi, kadrların ixtisaslaşması və peşəkarlığının artırılması istiqamətində təlimlərin davam etdirilməsi, nizam-intizama ciddi əməl edilməsi, qarşıya qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə icra olunması ilə bağlı konkret tapşırıqlar verib.

Kollegiya iclasının sonunda qərar qəbul edilib.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikada qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu – I Beynəlxalq Tibbi Forum

***Azərbaycan tibb tarixinin ilk böyük forumunun 18-21 iyun 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində keçirilməsi uzun illər ərzində bu bölgədə qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2022-ci il iyunun 10-da “Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında” Sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır.***

Bu gün cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında xüsusi rolu olan Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hər bir millətin tərəqqisinin əsas istiqamətlərindən biri olan elmə, təhsilə və səhiyyəyə göstərilən böyük diqqət və qayğı muxtar respublikamızın daha da inkişaf etməsini şərtləndirən əsas amillərdəndir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli səhiyyə sistemi, hər şeydən əvvəl, səhiyyədə ənənəviliklə müasirliyin üzvi vəhdətinin təmin olunması, eləcə də Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğunlaşdırılması prinsiplərinə əsaslanır. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən səhiyyənin və xüsusilə də ali tibb təhsilinin inkişafına xüsusi əhəmiyyət verilməsi, yüksək qayğı və diqqət göstərilməsi, yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm yer verilməsi sayəsində böyük uğurlar qazanılmaqdadır.





Bu müddətdə Naxçıvan Dövlət Universitetində də ardıcıl və hərtərəfli dövlət qayğısı sayəsində təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə rəhbərliyi və təşəbbüsü ilə səhiyyənin inkişafı məqsədilə nəzərdə tutulan proqram və layihələr, Naxçıvanda sosial-iqtisadi inkişaf ilə paralel aparılaraq, bütövlükdə, ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının uğurlu nəticəsini təşkil edir.

Naxçıvan Dövlət Universitetində beynəlxalq fəaliyyətin tənzimlənməsi və inkişafı üzrə siyasi xəttin fəlsəfəsi, Azərbaycan təhsilini uğurlu nəticələr qazanmış ölkələrin təhsil təcrübələri ilə zənginləşdirməkdən ibarətdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə, dünya ölkələrinin ali məktəbləri ilə əlaqələrin qurulması və əməkdaşlığın yüksələn xətlə inkişafının prioritet təyin edilməsinin məntiqi yekunu olaraq Naxçıvan Dövlət Universitetinin dünyanın ən yaxşı universitetləri sırasında – “Times Higher Education” (THE World University Rankings 2022) versiyası üzrə aparılan reytinq siyahısında yer alması qürurverici nailiyyətdir.

Xüsusi qeyd olunmalıdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsi böyük inkişaf yolu keçib, muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulub. Ötən 23 ildə fakültədə tələbələrin təhsili üçün lazımi şərait yaradılıb, müasir xəstəxana istifadəyə verilib, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulub. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 8 ixtisas üzrə 1284 tələbə təhsil alır ki, onlardan da 847-si xarici ölkə vətəndaşıdır.

Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq, Stomatologiya, 2020-ci ildən Tibb və İctimai səhiyyə, 2021-ci ildən isə Hərbi tibb və Psixologiya ixtisasları üzrə həkim, eləcə də 32 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir. Ötən dövrdə fakültəni bitirən bu gün səhiyyə müəssisələrində uğurla çalışan, həmçinin Almaniya, İspaniya, Hollandiya, ABŞ, Nigeriya, Türkiyə, İran, Kipr, Gürcüstan və digər xarici ölkələrdə də həkim kimi fəaliyyət göstərən məzunlarımız vardır.

Naxçıvan səhiyyəsinin inkişafı tarixində xüsusi yerə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirmiş, ötən illər ərzində kadr hazırlığı ilə yanaşı, mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan Dövlət Universitetində beynəlxalq əməkdaşlıq çərçivəsində tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən siyasət bəhrələrini verməkdədir.

Muxtar respublikada aparılan məqsədyönlü səhiyyə siyasətinin davamı olaraq təşkil edilən I Beynəlxalq Tibbi Forum praktik tibb fəaliyyəti ilə məşğul olan həkimlərin bilik, bacarıq və peşəkar vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş proses kimi mühüm əhəmiyyət daşımışdır. Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə 3 dildə – Azərbaycan, ingilis və rus dillərində keçirilən, Azərbaycan tarixində böyük həcmdə təşkil olunmuş ilk tibbi forumda dünyanın 7 ölkəsindən 350-dən artıq tibb sahəsi üzrə elm adamı daxil olmaqla, 700-dən çox mütəxəssis iştirak etmişdir.

Forumun açılışından əvvəl gələn qonaqların ulu öndər Heydər Əliyev abidəsi önünə gül qoyması və Heydər Əliyev Muzeyi ilə tanışlığı müstəqil Azərbaycanın qurucusu və memarı olmaqla yanaşı, bütün Şərq, Türk dünyasında tanınan görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi kimi tarixdə iz qoyan bu böyük şəxsiyyətə həm də elm və təhsilin, səhiyyənin inkişafı istiqamətində göstərdiyi əvəzsiz xidmətlər qarşısında böyük ehtiramın ifadəsi idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov forumun açılış tədbirində giriş sözü söyləyərək Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacağına inamını ifadə etmiş, təşkilatçılara təşəkkürünü bildirmiş və demişdir: ***“Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur”.*** Ali Məclisin Sədri səhiyyənin inkişafında ixtisaslı kadr hazırlığının, beynəlxalq elmi-təcrübə mübadiləsinin əhəmiyyətini də xüsusi vurğulamışdır:

***“Müasir dünyamızda xəstəliklərlə mübarizə prioritet məsələdir. Bu da, öz növbəsində, ixtisaslı tibbi kadr hazırlığını və səhiyyə sistemində ən son elmi nailiyyətlərin tətbiqini zərurətə çevirib. Böyük filosof və tibb alimi İbn Sina deyirdi ki, “Ümidsiz xəstə yoxdur, ümidsiz həkim var”. Təcrübə də göstərir ki, həkimlərin peşəkarlığı artırılmadan nə səhiyyənin inkişafından, nə də insan sağlamlığından danışmaq mümkündür. Qarşılıqlı fikir mübadiləsinin aparılması, elmi-tibbi nailiyyətlərin öyrənilməsi və tətbiqi, beynəlxalq təcrübədən faydalanmaq, bu mənada, mühüm əhəmiyyətə malikdir”.***

Açılış tədbirində Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Qaradəniz Texniki Universitetinin, Türkiyənin Yeditəpə Universitetinin rektorları və digər rəsmi təmsilçilər tərəfindən təbrik çıxışları edilmişdir. Açılış tədbirinin sonunda Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestri və Azərbaycanın tanınmış incəsənət ustalarının geniş şəkildə iştirakı ilə konsert proqramı təqdim olunmuşdur.

Forumda qeyd olunan şəxslərlə yanaşı, Ərdəbil, Qazi, Ərzurum Atatürk, İstinye, Koç, Qaziantep universitetlərinin, Rusiya Vişnevskiy İnstitutunun, Dağıstan Dövlət Tibb Universitetinin, Özbəkistanın Daşkənd Tibb Akademiyasının yüksək vəzifəli təmsilçiləri də iştirak etmişlər. Universitetlərlə yanaşı, forumda iştirak üçün müxtəlif tibb müəssisələrinin – Respublika Kilinik Xəstəxanasının, Bakı Sağlamlıq Mərkəzinin, Elmi-Tədqiqat Pediatriya İnstitutunun, Memorial Şişli Xəstəxanasının, Qazaxıstan Milli Elmi Cərrahiyyə Mərkəzinin, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin, Almaniya Nurnberg Beta Bayern Biotechunun, LİV Hospitalın, İstinye Universitetinin rəhbər və məsul nümayəndələri də Naxçıvan şəhərində oldular.



Forumda Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyi, Türk Qastroenteroloji Dərnəyi, Ulusal Endoskopik-Laparoskopik Cərrahi Dərnəyi, Türkiyənin Obezite Cərrahi Dərnəyi, Pelvik Ağrı & Endometriozis Dərnəyi, Ostomi Cərrahi Dərnəyi, Azərbaycan İmplantoloq İctimai Birliyi və Böyrək Transplantasiyası Mütəxəssislər Assosiasiyası və digər bir sıra nüfuzlu beynəlxalq dərnək və cəmiyyət sədrləri, YOUNG İFSO və Sağlamlıq Assosiasiyasının Azərbaycan Qastroenteroloq və Hepatoloqları İctimai Birliyinin prezidentləri və başqaları iştirak etmişdir.

Forum Türkiyədən “Memorial xəstəxanalar qrupu”, Naxçıvandan “Nəqşicahan Holdinq”in baş sponsorluğu, eləcə də tibbi ləvazimat, dərman və qida məhsulları istehsalı və satışını həyata keçirən 24 beynəlxalq və yerli şirkətin sponsorluğu ilə təşkil olunmuşdur. Naxçıvan Dövlət Universitetində forumun yüksək səviyyədə təşkili üçün 100 nəfərdən ibarət işçi qrup fəaliyyət göstərmişdir. Universitetin Tibb fakültəsinin könüllü tələbələri tərəfindən forumun yüksək səviyyəli Azərbaycan və ingilis dillərində vebsaytı *(globalmedforum.com)* yaradılmış, bütün çıxışçı və iştirakçı qeydiyyatı, məqalə və tezislərin qəbulu, elektron operator cavab xidməti və digər işlər sayt üzərindən həyata keçirilmişdir.



Forum çərçivəsində bir sıra sahələr üzrə xəstə müayinələri, cərrahi əməliyyatlar təşkil olunmuşdur. Forumun fəxri qonağı İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, tibb elmləri doktoru, professor Əziz Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında cərrahi əməliyyatlar, cərrahi stomatologiya üzrə professor Çingiz Rəhimov, tibb üzrə fəlsəfə doktoru Vüqar Qurbanov və tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərovun iştirakı ilə stomatoloji cərrahi əməliyyatlar həyata keçirilmişdir.

Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə muxtar respublikanın müasirtipli səhiyyə müəssisələrində tibbin müxtəlif aktual sahələri üzrə konsultativ müayinə və müalicələr aparılmışdır.

Forum müddətində Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Qaradəniz Texniki Universiteti və Yeditəpə Universiteti arasında ikitərəfli əməkdaşlıq müqavilələri imzalanmışdır. Bununla yanaşı, nüfuzlu dərnək və cəmiyyət sədrləri ilə görüşlər təşkil olunmuş və həmin qurumlarla gələcək əməkdaşlıqlar haqqında ilkin razılaşmalar əldə olunmuşdur.

Forumun açılışı günü Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində sərgilənən, sponsor təşkilatlar tərəfindən muxtar respublikaya gətirilmiş tədris və tibbi avadanlıqlardan ibarət “Müasir tibbi texnologiyalar” sərgisi bütün forum müddətində Naxçıvan Dövlət Universiteti Konservatoriyasının hər 3 mərtəbəsinin foyesində də təşkil olunmuşdur.

Forum müddətində 4 kurs, 1 simulyasiya, 24 bölmə üzrə təşkil olunan elmi konfranslar, tibb elminin aktual problemlərinə həsr olunmuş master klaslar, geniş müzakirələr və diskussiyalar şəraitində keçmişdir. Bu da tibb elminin bütün sahələrini əhatə edən beynəlxalq forumun yerli tibb mütəxəssislərinin zəngin dünyəvi təcrübə qazanması, ən son elmi yeniliklər ilə yaxından tanış olması baxımından əhəmiyyətliliyini bir daha təsdiq edir. Eyni zamanda gələcəkdə elmi və tibbi klinik sferada əməkdaşlığ üçün də geniş üfüqlər açır.

Forumda ilk dəfə olaraq tələbə elmi-tədqiqat işlərinin müzakirələri təşkil edilmiş, çoxsaylı müəllim və tələbənin yüksək elmi dərəcəli professorların iştirakı və dəyərləndirmələri ilə konfranslar həyata keçirilmişdir.

Forum müddətində iştirakçıların vaxtlarını xoş keçirmələri üçün müxtəlif konsert proqramları təşkil olunmuşdur. Forumun açılış tədbiri ilə yanaşı, həmin gün təşkil olunan Qala gecəsində və növbəti gün də Naxçıvan Dövlət Universiteti Konservatoriyası və Naxçıvan Musiqi Kollecinin əməkdaşlarının ifalarında bir-birindən maraqlı musiqi nömrələri, rəqslər təqdim olunmuşdur. Forum çərçivəsində Naxçıvan Muxtar Respublikasının tanıtımı məqsədilə qonaqların tarixi və turistik məkanlara səfərləri təşkil edilmişdir.

Bağlanış mərasimində iştirakçılar forumun yüksək səviyyədə təşkilinə, muxtar respublikada səhiyyənin, tibb elminin inkişafına göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə etmişlər. Qonaqların çıxışlarında aktual elmi mövzularda müzakirə və təcrübə mübadiləsindən bəhs olunmuş, muxtar respublika və forum haqqındakı təəssüratları dinlənilmişdir. Çıxış edənlər muxtar respublikanın əsrarəngiz təbiətindən, burada yaradılan şəraitdən və qonaqpərvərlikdən xoş təəssüratla danışmışlar. Sonra iştirakçı cəmiyyət sədrlərinə, fəxri qonaqlara plaketlər, bölmələr üzrə ən yaxşı təqdimatlar məruzə edənlərə diplom və plaketlər verilmiş, forumun bütün iştirakçılarına, sponsorlara sertifikat və hədiyyələr təqdim edilmişdir.

I Beynəlxalq Tibbi Forumun ictimaiyyətə geniş şəkildə çatdırılması məqsədilə universitetdə və muxtar respublikada fəaliyyət göstərən media qurumları nümayəndələrinin də təmsil olunduğu 15 jurnalistdən ibarət media qrupu yaradılmış, ölkənin 30-a yaxın kütləvi informasiya vasitələrində, ümumilikdə, 130-dan artıq material verilmiş, sosial şəbəkələrdə 1000-ə yaxın paylaşım edilmişdir.

Muxtar respublikada dünya miqyaslı elmi forumun uğurla keçirilməsini səhiyyə sisteminin inkişafına göstərilən dövlət qayğısı kimi dəyərləndirən qonaqlar I Beynəlxalq Tibbi Forumun təşkili üçün çoxsaylı təşəkkür məktubları, teleqramlar göndərərək forumun keçirilməsinə göstərilən dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişlər.

*I Beynəlxalq Tibbi Forumun Naxçıvan şəhərində keçirilməsi muxtar respublikanın turizm potensialının təbliği, eləcə də diyarın tərəqqisi üçün mühüm amil olan ictimai-siyasi sabitliyə əsaslanan inkişaf strategiyasının uğurlu nəticələrinin tanıdılması baxımından xüsusi əhəmiyyət daşımışdır. Ən yüksək səviyyədə təşkil olunan forumda dünya təcrübəsindən səmərəli surətdə faydalanmaqla problemlərin həllinə yönəlmiş birgə səylər, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik olmaqla azərbaycanlı tibb mütəxəssislərinin, eləcə də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi professor-müəllim heyətinin beynəlxalq əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirərək aktual mövzularda fikir mübadilələri ilə faydalı tərəfdaşlıqlar üçün yeni imkanlar yaratmışdır.*

**Elbrus İSAYEV**
***Naxçıvan Dövlət Universitetinin rektoru***

# Yarım ilin yekunları müzakirə edilib



2022-ci ilin birinci yarısında Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafının yekunları və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə həsr olunmuş müşavirəni Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açıb. Digər çıxışlarda bəhs olunan dövrdə görülmüş işlərlə bağlı məlumatlar verilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, ilin birinci yarısında Naxçıvan şəhərində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 0,9 faiz artıb. Hesabat dövründə 16 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılıb, 59 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

2022-ci ilin birinci yarısında Naxçıvan şəhərində "Naxçıvan Saray" kompleksi, "Naxplast" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni istehsal xətti, yeyinti məhsullarının qablaşdırılması sahəsi, sağlamlıq mərkəzi, dörd avtomobil təmiri sahəsi, bir arıçılıq və bir heyvandarlıq təsərrüfatı yaradılıb, bir arıçılıq və bir heyvandarlıq təsərrüfatı genişləndirilib, "İmplant Dent Naxçıvan" Stomatoloji Klinikası yenidən qurulub, oksigen istehsalı, enerji içkilərinin istehsalı, mebel istehsalı, iplik istehsalı, iki avtoservis xidməti sahəsi, iki mağaza, iki anbar, akvarium balıqlarının yetişdirilməsi sahəsi, "Naxçıvan Şərab" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən içki istehsalı sahəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən salfet istehsalı, "Saf Metal" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən məişət və kənd təsərrüfatı avadanlıqlarının istehsalı sahələri, bir arıçılıq və bir heyvandarlıq təsərrüfatının yaradılması, unlu-qənnadı məmulatların, iki mebel istehsalı sahəsinin və heyvandarlıq təsərrüfatının genişləndirilməsi, tikiş sahəsinin fəaliyyətinin stimullaşdırılması davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin inzibati binasının, Naxçıvan şəhərində bir yaşayış binasının əsaslı təmiri başa çatdırılıb, bir sıra inzibati binanın tikintisi və digər quruculuq tədbirləri davam etdirilir.

Bildirilib ki, 2022-ci ilin ilk yarısında Naxçıvan şəhərində sənaye məhsulu istehsalı sahəsində bir sıra işlər görülüb, ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsal olunan sənaye məhsulunun həcmi 2,1 faiz artıb. Dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 11 layihə üzrə istehsal və xidmət obyekti yaradılıb, 18 layihə üzrə istehsal və xidmət obyektinin yaradılması davam etdirilir. Bəhs olunan dövrdə aqrar sektorun inkişafı üçün də bir sıra işlər görülüb. Naxçıvan şəhərində 2 min 248 hektar sahədə əkin aparılıb ki, bunun da 992 hektarını taxıl əkini təşkil edir. 1 iyul 2022-ci il tarixə dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən yığılmış məhsul 1,8 dəfə, məhsuldarlıq 1,4 faiz artıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tərəvəz bitkilərinin əkini sahələrindən yığılan məhsul 3,4 faiz, məhsuldarlıq 2,4 faiz çox olub. Barverən meyvə bağlarından 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox məhsul yığılıb. Ət istehsalı 1,3, süd istehsalı 1,7, yumurta istehsalı 1,2, yun istehsalı 1,4 faiz artıb. Naxçıvan şəhərinin kənd və balıqçılıq təsərrüfatlarında 2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 1,9 faiz çox məhsul istehsal edilib.

İcra başçısı qarşıda duran vəzifələrdən də danışıb.



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev geniş məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, xidmətin fəaliyyət istiqamətlərində prioritet yer tutan qanunsuz miqrasiyaya qarşı səmərəli və effektiv mübarizə tədbirləri birinci yarım il ərzində də ciddi nəzarətdə saxlanılıb. Belə ki, həyata keçirilən tədbirlər zamanı muxtar respublika ərazisində qeydiyyatsız olan, qanunsuz yaşayan, həmçinin qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 287 əcnəbi aşkarlanıb. Əcnəbiyə yaşayış sahəsi verən 1 şəxs barəsində cərimə inzibati tənbeh növü tətbiq edilib, əcnəbilərdən 285-i barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla, biri barəsində isə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla cərimə inzibati tənbeh növü tətbiq olunub.

Vurğulanıb ki, hesabat dövrü ərzində əcnəbilərin olduğu yer üzrə qeydiyyatı, müvəqqətiolma müddətinin uzadılması, müvəqqəti və daimi yaşama icazələrinin, iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və xidmətin səlahiyyətlərinə aid olan digər məsələlərlə bağlı, ümumilikdə, xidmətə 2678 müraciət daxil olub. Həmin müraciətlərdən 1774-ü əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlıdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə olduğu yer üzrə qeydiyyatla bağlı daxil olan müraciətlər 1,3 dəfə və ya 36 faiz çoxdur.

"Bu gün Dövlət Miqrasiya Xidmətinin elektron xidmətləri bütün sahələr üzrə tam gücü ilə fəaliyyət göstərir", – deyən xidmət rəisi əlavə edib ki, birinci yarım il ərzində *e-mail* ünvanı və "Elektron hökumət" portalına, ümumilikdə, 396 müraciət daxil olub. Bu müraciətlərin 368-i əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, 13-ü müvəqqəti yaşama icazəsinin verilməsi ilə bağlı, 15-i isə sorğu xarakterlidir. Müraciətlərin hər biri xidmət tərəfindən tam, operativ, eyni zamanda qanuna müvafiq qaydada cavablandırılıb. Həmçinin hesabat dövründə xidmətə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı 409, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 8, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 3, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 291 müraciət daxil olub.

Qeyd olunub ki, 2022-ci ilin birinci yarım ili ərzində əcnəbilərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazəsinin verilməsi ilə bağlı xidmətə 100 müraciət daxil olub.

Xidmət rəisi bildirib ki, muxtar respublika ərazisində müvəqqəti olan və yaşayan, habelə mövcud vəziyyətlə əlaqədar öz ölkələrinə qayıda bilməyən əcnəbilərin olma və yaşamalarının leqallaşdırılması ilə bağlı da zəruri tədbirlər görülüb və onların ölkədə olmaları qanuniləşdirilib. Bu səbəbdən birinci yarım il ərzində müvəqqətiolma müddətinin uzadılması ilə bağlı 78 müraciət daxil olub və icrası təmin edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində keçirilən tədbirdə çıxış edən xidmətin rəisi Mirzə Cəlilov bildirib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə hərbi xidmətə qəbul ilə əlaqədar 2022-ci ilin birinci yarım ili ərzində daxil olmuş 133 müraciət əsasında xidmətin rayon (şəhər) idarə və şöbələri üzrə 6 zabit, 13 gizir, 107 müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, 7 qadın hərbi qulluqçu ehtiyatdan çağırılaraq hərbi-həkim komissiyasından keçirilməklə həqiqi hərbi xidmətə göndərilmiş, 885 nəfər Silahlı Qüvvələrdən ehtiyata buraxıldığına görə qeydiyyata alınmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 may tarixli Qərarına uyğun olaraq çağırışçıların və hərbi vəzifəlilərin dövlət orqanlarında və təşkilatlarda hərbi uçotun və təxsis (bron) edilmə vəziyyətinin yoxlanılması həyata keçirilmişdir. Xidmətin rayon (şəhər) idarə və şöbələri üzrə 2022-ci ilin birinci yarım ili üçün nəzərdə tutulmuş 270 idarə, müəssisə və təşkilat tam yoxlanılmışdır. Vurğulanmışdır ki, 2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramı çərçivəsində müddətli həqiqi hərbi xidmətini başa vuraraq Silahlı Qüvvələrdən ehtiyata tərxis olunan şəxslərin işlə təmin olunması məsələlərinin həlli ilə əlaqədar onlar haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş və həmin gənclərin məşğulluqlarının təmin edilməsi nəzarətdə saxlanılmışdır. 2022-ci ilin birinci yarım ili ərzində hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik əleyhinə olan inzibati xəta törətməyə görə, ümumilikdə, 7230 manat məbləğində cərimə dövlət hesabına ödənilməklə inzibati tənbeh tətbiq edilmişdir.

Diqqətə çatdırılmışdır ki, bəhs olunan dövrdə də Vətən müharibəsi zamanı Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş, şəhid olmuş, xəsarət almış Azərbaycan Respublikası Prezidenti tərəfindən və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təltif edilmiş şəxslərə orden, medal və onların vəsiqələri təqdim olunmuşdur. Bildirilmişdir ki, hesabat dövründə Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tələbələri üçün məşğələlər keçirilmiş, dördüncü kurs tələbələrinin yekun imtahanında xidmətin əməkdaşı iştirak etmişdir.

Qeyd olunmuşdur ki, şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının, müharibə veteranlarının iştirakı ilə şagirdlərlə vətənpərvərlik mövzusunda tədbirlər keçirilmişdir. Çağırışaqədər yaş həddində olan vətəndaşların Silahlı Qüvvələrdə müddətli həqiqi hərbi xidmətə hazırlanması məqsədilə 2022-ci ilin may ayında xidmətin rayon (şəhər) idarə və şöbələrinin, eləcə də təhsil şöbələrinin və hərbi hissələrin birgə təşkilatçılığı ilə rayon (şəhər) ərazisində yerləşən "N" hərbi hissənin atış meydanında açıq dərslər və nəzəri məşğələlər keçilmişdir.

Sonra çıxışlar edilib.

* * *



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində cari ilin ilk yarım ilinin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbiri giriş sözü ilə xidmətin rəisi Müslüm Cabbarzadə açıb. Bildirilib ki, muxtar respublikamızda daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi məqsədilə Şərur, Kəngərli və Şahbuz rayonlarında torpaqdan istifadə vəziyyətinə dair monitorinqlər aparılıb, torpaqların qanunsuz istifadəsinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, 48 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 30 ailə təsərrüfatının icarəsinə verilmiş 7,34 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb. Bununla belə 2022-ci ilin 6 ayı ərzində muxtar respublika üzrə 3565 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazırlanan mülkiyyət sənədlərinin sayı 3,5 faiz artıb. Yeni yaranmış 175 daşınmaz əmlak obyektinə ünvan verilib, 2546 texniki sənəd hazırlanıb, səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 45 yaşayış məntəqəsində vətəndaşların müraciətlərinə baxılıb, 573 vətəndaşa elektron xidmətlər göstərilib. Naxçıvan şəhərinin 54-cü, 56-cı, Xətai və Əlincə məhəllələrində sənaye üsulu ilə hazırlanmış 2400-dən artıq ünvan lövhəsi və giriş nömrə nişanının quraşdırılması başa çatdırılıb.

Qeyd olunub ki, 2022-ci ilin birinci yarım ili ərzində xidmətin müvafiq sektoru və yerli qurumları tərəfindən hazırlanmış 3080 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilib. Daxil olunan müraciətlər əsasında 1014 əmlaka dair texniki pasport, 1532 torpaq sahəsinə dair plan-ölçü, ümumilikdə, 2546 texniki sənəd hazırlanıb. Dövlət qeydiyyatına alınacaq əmlaklara texniki sənədlərin hazırlanması məqsədilə 1011 əmlaka yerində baxış keçirilərək müayinə aktı tərtib edilib. Əmlakların bölünməsi və birləşməsi zamanı əməliyyatların natura və kameral şəraitdə düzgün aparılmasına nəzarətin təşkili məqsədilə 6 ay ərzində 242 əmlaka bölünmə və birləşmə planı tərtib olunub, bölünmə və birləşmələr maraqlı tərəflərin iştirakı ilə yerlərdə mərz nişanları bərkidilməklə icra edilib.

Vurğulanıb ki, "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar Şahbuz rayonunun Kolanı, Babək rayonunun Aşağı Buzqov və Yuxarı Buzqov bələdiyyələri ərazisində torpaqların qida maddələri ilə təminolunma kartoqramlarının yenilənməsi üçün işçi planları hazırlanaraq "Araz" Elm-İstehsalat Birliyinə təqdim edilib. Bununla yanaşı, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Şərur, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonlarında meyvə bağları və yaşıllıq zolaqlarına dair məlumatlar dəqiqləşdirilərək torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilib.

Sonda məruzə ətrafında çıxışlar olub, fəaliyyəti yüksək qiymətləndirilən iki əməkdaşa təşəkkürnamə təqdim olunub.

* * *

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində keçirilən iclasda çıxış edən xidmətin rəisi Ramin İsmayılov qeyd edib ki, 2022-ci ilin 6 ayı ərzində də əhalinin və digər istehlakçıların fasiləsiz, təhlükəsiz təbii qazla təchizatının təmin olunmasına xüsusi diqqət yetirilmişdir. Muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 iyul 2022-ci il tarixə ümumi sayı 92907 olmuşdur ki, bunun 89971-i əhali, 2936-sı isə qeyri-əhali abonentdir. Muxtar respublikanın şəhər və rayon ərazilərində ilin 6 ayı ərzində daxil olan müraciətlərə əsasən cəmi 335 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 304-ü əhali, 31-i isə qeyri-əhali abonentdir.

Cari ilin 6 ayında qaz təsərrüfatında istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanılmış, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülmüş, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilmiş, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilmiş, təbii qaz istehlakçılarına əhali və qeyri-əhali qrupundan olan abonentlərə, müəssisə və təşkilatlara (özəl sektora) istehlak olunan təbii qazın dəyərinin ödənilməsi üzrə bildirişlərin, üzləşmə aktlarının və elektron vergi hesab-fakturalarının vaxtında verilməsi təşkil olunmuş, eyni zamanda qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanlar



peşəkarlıq səviyyələrinin artırılması məqsədilə ixtisas hazırlığına cəlb edilmişlər.

Muxtar respublikada qaz təsərrüfatı şəbəkəsində qaz analizatorlar və dedektorlar vasitəsilə ilin 6 ayı ərzində 4164 ədəd sızma aşkarlanıb və sızmalar texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılmışdır.

Şəhər, rayon qaz istismar idarələrinin qəza dispetçer sahələrində istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə ilin 6 ayı ərzində 5644 ədəd çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunmuşdur. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 iyul 2022-ci il tarixə cəmi 20978, o cümlədən ilin 6 ayı ərzində 268 qaz sayğacı quraşdırılmışdır.

Sonda məruzə ətrafında çıxışlar dinlənilmişdir.

**Xəbərlər şöbəsi**

*Azərbaycan mətbuatında özünəməxsus yaradıcılıq yolu olan "Şərq qapısı" qəzeti ötən – 2021-ci ildə birəsrlik tarixi bir dövrü geridə qoydu. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 1 iyun tarixdə "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncam imzaladı. Həmin Sərəncamın işığında muxtar respublikanın güzgüsünə çevrilmiş qəzetin yubileyinin layiqli şəkildə qeyd olunması məqsədilə "Tədbirlər Planı" təsdiq edildi. Həmin "Tədbirlər Planı"na əsasən bir sıra tədbirlər keçirildi, yubileylər, görüşlər təşkil olundu, nəşrlər ərsəyə gəldi. Belə nəşrlərdən biri də "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" adlanırdı. Müxtəlif müəlliflərin müxtəlif sahələri əhatə edən elmi araşdırmalarının cəm olunduğu bu kitabda "Şərq qapısı" qəzetinin Naxçıvanda teatrın fəaliyyəti və inkişafına hansı dərəcədə yer ayırması məsələsi də əks olunub.*




## Naxçıvan mətbuatında Naxçıvan teatrının təbliği və nəşri monoqrafik təqdimatda

Qeyd olunan mövzu üzrə AMEA Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov və həmin institutun elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov araşdırmalar apararaq məqalələr təqdim etmişlər. Bu fundamental nəşrdə qəzetlə bağlı iyirmi məqalənin yer almasını nəzərə alsaq, burada araşdırılan hər hansı bir mövzuya "Şərq qapısı" qəzetinin hansı dərəcədə yer verdiyini bütün təfsilatı ilə əks etdirmək qeyri-mümkündür. Eləcə də Naxçıvan teatrına "Şərq qapısı" qəzetində hansı səviyyədə yer verilməsi qısa icmal şəklində təqdim olunmuş, mühüm məqamlar qabardılaraq fundamental nəşrə daxil edilmişdir.

Nəzərə alsaq ki, "Şərq qapısı" qəzetinin 100 illik bir tarixi artıq arxada qaldı və bu birəsrlik dövrdə "Şərq qapısı"ndan 38 yaş böyük olan Naxçıvan teatrının, demək olar ki, keçdiyi yol davamlı olaraq işıqlandırılıb, bu baxımdan geniş, əhatəli bir araşdırmanın monoqrafik səviyyədə və iri həcmdə nəşrinə ehtiyac yaranır. Monoqrafiyanın müəllifləri Əli Qəhrəmanov və Ələkbər Qasımov bu sahədə apardıqları araşdırmaları birlikdə, sistemli halda tərtib edərək Naxçıvan teatrı barədə "Şərq qapısı" qəzetində nəşr olunan xəbər, resenziya, müsahibə, oçerk və məqalələrdən yola çıxaraq sanballı bir tədqiqat əsəri ortaya qoymuşlar.

"Naxçıvan teatrı "Şərq qapısı" qəzetinin səhifələrində" adlanan monoqrafiya 5 fəsildə öyrənilmişdir. "Muxtar respublikanın teatr həyatı "Şərq qapısı" qəzetinin səhifələrində" adlı fəsildə qəzetin 1921-1940-cı illər dövründə nəşr olunmuş nömrələrində Naxçıvan teatrına ayrılan yerə geniş və əhatəli nəzər yetirilmişdir. Demək olar ki, qəzetin ilk nömrəsinin nəşrindən İkinci Dünya müharibəsinin başlanmasına kimi olan dövr və zaman kəsimində doğma diyarımızda teatrın həyatında baş verən hadisələr geniş şəkildə araşdırmaya cəlb edilmişdir. Bu zaman biz Naxçıvanda hansı tamaşaların səhnəyə qoyulduğunu, tamaşalarda hansı aktyorların rolları canlandırdığını, Azərbaycanın digər bölgələrindən Naxçıvana edilən qastrollar, teatrın repertuarında hansı əsərlərin yer alması, göstərilən səhnə əsərlərində aktyor oyunlarının səviyyəsi, xalqın teatra maraq və diqqəti kimi məqamları bu fəsildə geniş şəkildə öyrənə bilirik.

İkinci fəsil "Naxçıvan teatrı və vətənpərvərlik mövzusu "Şərq qapısı" qəzetinin səhifələrində" adlanır. Bu fəsil 1941-1945-ci illəri əhatə edir. Belə ki, İkinci Dünya müharibəsinin başlanması ilə minlərlə Azərbaycan vətəndaşı kimi naxçıvanlılardan da əli silah tutanlar ön cəbhəyə yollanmışdılar. Arxa cəbhədə isə mədəni-maarif idarələrinin əsas vəzifəsi insanları vətənpərvərlik ruhunda kökləmək idi. Bu baxımdan Naxçıvan teatrının kollektivinin bir qismi cəbhəyə yollansa da, yaşlı aktyorlar arxa cəbhədə qalaraq qeyd etdiyimiz təbliğat işinə dəstək olurdular. Həmin aktyorların bu dövrdə hazırladığı tamaşalar, ictimaiyyət, zəhmətkeşlər, əməkçilər qarşısında oynadığı tamaşalar haqqında qəzetin bu dövr səhifələrindən məlumat əldə edirik. Müəlliflər də məhz qəzetin bu illərdəki səhifələrindən yola çıxaraq Naxçıvan teatrının həmin illərdəki fəaliyyətini araşdıraraq maraqlı faktlar ortaya qoymuşlar. Belə maraqlı məqamlardan, sadəcə, birini qeyd etmək kifayətdir. Bu da ondan ibarətdir ki, həmin dövrdə cəbhəyə yola düşən teatrın artistlərindən biri Abbas Quliyev ön cəbhədə göstərdiyi igidliyə və şücaətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, müharibə bitdikdən sonra isə bir müddət, hətta teatra direktorluq da etmişdir.

"Naxçıvan teatrının fəaliyyəti "Şərq qapısı" qəzetinin səhifələrində" adlı üçüncü fəsil 1946-1968-ci illəri əhatə edir. Bu dövrdə müharibədən sonra canlanan teatr həyatı, dinc quruculuq illərində teatrın verdiyi töhfələr və bu kimi məsələlərin qəzetin səhifəsində işıqlandırılmasına nəzər yetirilmiş, elmi baxış bucağından keçirilmişdir.

Bu fəsildə diqqəti cəlb edən maraqlı məqamlardan biri də budur ki, həmin dövrdə "Şərq qapısı" səhifələrində tamaşanın ilk nümayişindən əvvəl rejissorun öz işi və ayrı-ayrı aktyorların canlandıracağı rolların xarakteri barədə maraqlı məqalələri nəşr olunmuşdur. Bu yolla da ictimaiyyətin yeni tamaşa haqqında ətraflı məlumatı olur, hansı obrazı hansı aktyorun canlandıracağı əvvəlcədən bilinirdi.

Bu fəsildə biz, xüsusilə yerli dramaturqların da teatrda daha çox əsərlə təmsil olunduğunu qəzetin səhifələrindən yola çıxan müəlliflərin təqdimatında öyrənmiş oluruq.

Dördüncü fəsil ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonrakı dövrdən başlayaraq Azərbaycanın müstəqillik əldə etdiyi zamanı əhatə edir. "Muxtar respublikanın teatr aləmi və "Şərq qapısı" qəzeti (1969-1990)" adlanan fəsli nəzərdən keçirəndə Naxçıvan teatrının əsaslı inkişaf dövrünü müşahidə edə bilirik. Qeyd olunan illər aralığında "Şərq qapısı" qəzeti səhifələrində teatrda tamaşaya qoyulmuş əsərlər barədə ətraflı məlumat əldə etməklə birlikdə yeni teatrların yarandığını da öyrənmiş oluruq. Belə ki, həmin dövrlərdə Cavid Poeziya Teatrının yaradılması və fəaliyyəti, Naxçıvan Dövlət Kukla Teatrının yaradılması, Naxçıvan şəhərində və Ordubad, Şərur rayonlarında Xalq teatrlarının fəaliyyətə başlaması kimi məqamlar qəzet səhifələrində hansı səviyyədə işıqlandırılması ilə tanış olur, adıçəkilən teatrlarda tamaşaya qoyulan əsərlər, göstərilən tamaşalar barədə yazılan yazılar, verilən müsahibələr, tamaşa sonrası qeydlər, resenziyalar haqqında ətraflı məlumat əldə edirik.

Monoqrafiyanın sonuncu – beşinci fəsli "Müstəqillik illərində Naxçıvanda teatr məsələləri "Şərq qapısı" qəzetinin səhifələrində (1991-2020)" adlanır. Adından da göründüyü kimi, bu fəsildə ölkəmizin müstəqillik əldə etməsindən sonra Naxçıvanda teatrın keçdiyi inkişaf yolu, xüsusilə müstəqillik illərindəki əsaslı fundamental yüksəlişin qəzetin səhifələrində necə təqdim olunması öyrənilir. Teatrın binasının əsaslı təmir olunması, rayonlardakı xalq teatrlarının yaradıcı heyətinin komplektləşdirilməsi, birindən maraqlı əsərləri tamaşaya qoymaları, Naxçıvan teatrlarındakı yaradıcı kollektiv üzvlərinin uğurlu fəaliyyətinin dövlət tərəfindən mükafatlandırılması kimi məsələlərin "Şərq qapısı" qəzetindəki əksi tədqiq və təhlil edilmişdir.

Bütün bunların hamısı monoqrafiyanın "Nəticə" hissəsində ümumiləşdirilmişdir. Həmin ümumiləşdirmədən monoqrafiyanın ümumi mahiyyətini anlamaq olur. Müəlliflərin də gəldiyi qənaət budur ki, Naxçıvan teatrı öz fəaliyyəti ilə qəzet üçün maraqlı materiallar verdiyi kimi, "Şərq qapısı" qəzeti də Naxçıvanda teatrın, teatr sənətinin, teatrın yaradıcı kollektivinin təbliğatında mühüm rol oynamışdır.

Monoqrafiya Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında həm teatrın, həm də mətbuatın keçdiyi inkişaf yolunu öyrənmək üçün maraqlı mənbədir. Həmçinin bir il sonra 140 illik yubileyini qeyd edəcəyimiz Naxçıvan teatrının inkişaf yolunun əhatəli öyrənilməsi və bu zaman ötən il 100 illik yubileyini qeyd etdiyimiz "Şərq qapısı" qəzetinin nə kimi rolunun olduğunu müəyyən etmək üçün müraciət ediləcək məxəzlərdən biri olacaqdır. Monoqrafiya bu sahədə tədqiqat aparan alimlər üçün dəyərli istinad mənbəyi olmaqla yanaşı, ali təhsil müəssisələrində tədris zamanı istifadə edilə bilər, həmçinin geniş oxucu kütləsi də bu əsərə müraciətlə Naxçıvan teatrının Naxçıvan mətbuatında işıqlanan tərəfinə nəzər yetirə bilər.

*Bu maraqlı tədqiqat əsəri üçün müəllifləri – sənətşünaslıq üzrə fəlsəfə doktorları, dosentlər Əli Qəhrəmanovu və Ələkbər Qasımovu təbrik edir, Naxçıvanda teatr sənətinin inkişaf mərhələlərinin araşdırılması, üzə çıxarılması və tədqiq edilməsindəki fəaliyyətlərində uğurlar arzulayıram.*

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent***

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi iyun ayında da fəaliyyətini qəbul olunmuş müvafiq Dövlət proqramlarının və nazirliyin illik iş planının icrası istiqamətində qurub.*

3 elmi məqalə nəşrə göndərilib, müəssisənin yardımçı təcrübə təsərrüfatında taxıl sahələrinin vəziyyəti öyrənilib və sahələr üzrə orta məhsuldarlıq müəyyən olunub. Aqrokimya, torpaqşünaslıq və torpaqların

## Aqrar sahənin inkişafı diqqətdə saxlanılıb

Ötən ay taxıl biçininin başlanması ilə əlaqədar nazirlikdə yaradılmış operativ qərargah vasitəsilə biçinin gedişinə nəzarət edilib. Nazirlik əməkdaşları tərəfindən muxtar respublikada taxıl biçininin qısa müddətdə başa çatdırılması, biçin zamanı baş verə biləcək fəsadların qısa zamanda aradan qaldırılması barədə biçində iştirak edəcək mexanizator, sahibkar və ailə təsərrüfatı üzvləri ilə maarifləndirici görüşlər keçirilib. Mütəxəssislər tərəfindən bitki yağı üçün əkilmiş qarğıdalı və günəbaxan əkinlərinə aqrotexniki qaydalara uyğun qulluq edilməsi, bostan-tərəvəz sahələrində, meyvə və üzüm bağlarında xəstəlik və zərərvericilərə qarşı mübarizə aparılması üçün təsərrüfat sahiblərinin iştirakı ilə tarla seminar-müşavirələri keçirilib. Nazirlik əməkdaşları tərəfindən Naxçıvan şəhərində "N" hərbi hissənin yaşıllıq zolağındakı ağaclarda və dekorativ bitkilərdə, Dövlət Baytarlıq Xidmətinin həyətyanı sahəsindəki meyvə ağaclarında xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirinin aparılmasına əməli köməklik göstərilib. Şahbuz rayonu ərazisində yerləşən yaşıllıq zolaqlarında və meşə təsərrüfatında karantin zərərvericilərin növ müxtəlifliyini və intensivliyini yoxlamaq məqsədilə sahələrə baxış keçirilib, mübarizə tədbirlərinin aparılması üçün müvafiq məsləhət və tövsiyələr verilib.

Ötən ay "Araz" Elm-İstehsalat Birliyinin elmi şurasının iclası keçirilib, aparılan elmi-tədqiqat və təsərrüfat işlərinin gedişi müzakirə olunub və müvafiq tapşırıqlar verilib. Birliyin əməkdaşları tərəfindən kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Babək rayonunun Zeynəddin kənd sakini Amil Nəbiyev tərəfindən gətirilmiş torpaq nümunəsi analiz olunaraq tərkibindəki qida maddələrinin miqdarına uyğun gübrə normaları hesablanıb, mülkiyyətçiyə yazılı məlumat verilib.

Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisas üzrə istehsalat təcrübəsində olan tələbələrə laboratoriyada torpaqların qida maddələrinin, humusun, karbonatlığın, mühitin və elektrik keçiriciliyinin təyini analizlərinin aparılması öyrədilib. Onlara torpaqların qida maddələri ilə təmin olunma dərəcələrinə əsasən gübrə normalarının hesablanması, kartoqramların hazırlanması haqqında məlumat verilib.

Hesabat dövründə Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri fermerlər, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahibləri ilə görüşlər keçirib, üzüm və meyvə bağlarında xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə idarəyə müraciət edən 45 təsərrüfat sahibinə xəstəlik və zərərvericilərə qarşı tələb olunan mübarizə tədbirləri haqqında ətraflı məlumat verilib. Heyvandarlıqda mal-qaranın inkişaf etdirilməsi, onlara zoobaytar qaydalara uyğun qulluq edilməsi və cins tərkibinin yaxşılaşdırılması, arı ailələrinin mərhələli şəkildə köçürülməsi və xəstəliklərə qarşı profilaktik işlərin aparılması istiqamətində maarifləndirmə tədbirləri davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Fiber-optik şəbəkənin əhatə dairəsi genişləndirilir



Rabitə və internet xidmətlərinin ən mühüm elementlərindən biri hesab olunan fiber-optik kabel şəbəkəsinin Naxçıvan Muxtar Respublikasında əhatə dairəsinin ildən-ilə artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Belə ki, texniki infrastrukturun mövcud olduğu istənilən ərazidə fərdi və korporativ istifadəçilərə təqdim edilməklə istifadəçilərin bir optik xətt üzərindən multimedia xidmətlərinin müasir standartlara uyğun təşkilinə imkan verən fiber-optik şəbəkənin əhatə dairəsi genişləndirilir. Bu məqsədlə yaşayış məntəqələrinə, bir sıra qurumlara və yeni inşa olunan kənd mərkəzlərinə fiber-optik xətt çəkilişi davam etdirilir, istismar müddəti ərzində fiber-optik xətt sahəsində yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində operativ və təxirəsalınmaz tədbirlər həyata keçirilir. Fiber-optik şəbəkənin genişləndirilməsi evlərə də fiber-optik kabelin çəkilməsinə imkan verib. 2022-ci ilin ötən dövrü ərzində "Evədək optika" layihəsi çərçivəsində Naxçıvan şəhərində 16 fərdi mənzilə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb.

Həyata keçirilən tədbirlərin məntiqi davamı olaraq "Naxçıvan Sement Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Naxçıvan Şəhər Rabitə İdarəsi arasında bağlanmış müqaviləyə əsasən fiber-optik kabel xətlərinin çəkilməsi üçün zəruri tədbirlər görülüb, 30 ədəd metal dirək basdırılıb, 1650 metr fiber-optik xətt çəkilib, fiber-optik paylayıcı şkaflarda təmir-bərpa işləri həyata keçirilib, rabitə xətləri texniki normalara uyğun vəziyyətə gətirilib.

Qeyd olunanlarla yanaşı,"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin valyutadəyişmə məntəqələrində zəruri avadanlıqlar quraşdırmaqla fiber-optik xətt vasitəsilə bankın ümumi sisteminə qoşulması təmin edilib. Müraciətlərə əsasən "Nəxşicahan Med" Məhdud Məsuliyyətli Cəmiyyətinə, "Şərur broyler" quşçuluq təsərrüfatına, Uzunoba ailəvi istirahət mərkəzinə, "Accessbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialına və "Dan yeri" Alış-Veriş Mərkəzinə fiber-optik xətt çəkilişi məqsədilə zəruri tədbirlər görülməkdədir.

Qeyd edək ki, fiber-optik xətlər zəruri texniki tədbirlər görülməklə torpağın altı ilə çəkildiyindən məlumatın ötürmə sürəti hava şəraiti və ya stasionar telefon xətti kimi amillərdən asılı olmur. Bu da sakinlərə yüksəkkeyfiyyətli xidmət göstərilməsini təmin edir. Bu şəbəkə vasitəsilə təmin olunan internetdə sürət itkisi yoxdur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Axundov Akim Yasin oğlunun adına Azərbaycan İnşaat Mühəndisləri Universiteti tərəfindən verilmiş AB-I-N-036706 nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter ində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 659